UOT 330.322.2:336.221:622 .276 (479.24)

# Neftqazçıxarmada investisiya layihələrinin iqtisadi qiymətləndirilməsində vergi amili



**Məmmədova İradə Xalid qızı***
dissertant, ARDNŞ-in «Neftqazelmitədqiqatlayihə» institutu

## Xülasə

*Tədqiqatın məqsədi* - neftqazçıxarmada vergi dərəcəsinin azaldılması ilə investisiya layihələrinin iqtisadi qiymətləndirilməsində səmərəliliyin əldə edilməsi və iqtisadi qərarların qəbulunda bu mexanizmdən istifadə olunmasından ibarətdir.

*Tədqiqatın metodologiyasını* - məntiqi yanaşma müqayisəli təhlil, və analitik hesablamalar təşkil edir.

*Tədqiqatın nəticələri* - vergi yükünün azalması hesabına (*vergi yükünün 25%-dən 20%-ə endirilməsi*) NPV göstəricisinin dövrlər üzrə dəyişməsinin neftqazçıxarma müəssisəsinin səmərəli fəaliyyətinə təsirinin əsaslandırılması.

*Tədqiqatın məhdudiyyətləri* - məqalənin həcminə qoyulan məhdudiyyəti nəzərə alaraq Azərbaycanın köhnə neft yataqlarında investisiya layihələrinin iqtisadi qiymətləndirilməsində alqoritmin tam açıqlanmaması.

*Tədqiqatın praktiki əhəmiyyəti* - təqdim edilən tədqiqat işindən digər investisiya layihələrinin qiymətləndirilməsində istifadə oluna bilər.

*Tədqiqatın orijinallığı və elmi yeniliyi* - neft yataqlarının işlənməsinə yönəldilən investisiyanın cəlbediciliyini təmin etmək məqsədilə köhnə yataqlarda vergi sisteminin differensasiya edilməsi təklif edilmişdir.

**Açar sözlər:** *neftqazçıxarma kompleksi, investisiyalar, vergiqoyma.*

## 1. Giriş

Dövlətin bazar iqtisadi münasibətləri şəraitində başlıca problemlərindən biri iqtisadiyyatın müxtəlif sahələrinin inkişafı üçün zəruri olan investisiya mənbələrinin müəyyən etməsindən ibarətdir. Respublikada investisiyaya olan tələb təklifi

* Bakı şəhəri. AZ 1012. Zərdabi, 88.
memi61@rambler.ru



PDF processed with CutePDF evaluation edition www.CutePDF.com

üstələdiyi üçün onun cəlb edilməsində marağı olan dövlətə ilk növbədə öz daxili ehtiyatlarından səmərəli istifadə etməklə potensial investora əlverişli mühit yaratmalıdır.

Qeyd etmək lazımdır ki, investisiya prosesi həyata keçirilərkən ən başlıca məsələ əsaslandırılmış və real gerçəkliyi özündə əks etdirən investisiya siyasətidir. Bu siyasətin bir çox amillərlə yanaşı aşağıdakı istiqamətləri də vardır: investor üçün sabit vergi rejiminin və onun hüquqi bazasının yaradılması; ölkənin investisiya reytinqinin yüksəldilməsi və bu məqsədlə bir sıra risklərin azaldılması tədbirlərinin işlənməsi; potensial investorun cəlb edilməsi, investisiyanın idarə edilməsi sahəsində respublikada vahid qurumun yaradılması. Qeyd edək ki, axırıncı bəndin yerinə yetirilməsi istiqamətində respublikada müəyyən işlər görülmüş, Respublika Prezidentinin sərəncamı ilə xüsusi Azərbaycan İnvestisiya Şirkəti» yaradılmışdır. Respublikamızda həyata keçirilən düşünülmüş və məqsədyönlü iqtisadi siyasət sayəsində strateji məsələlərin həllində müstəqil qərarların qəbul edilməsi və onun real sürətdə həyata keçirilməsi mümkün olmuşdur.

Azərbaycan Respublikası ərazisində neft sazişləri əsasında karbohidrogen fəaliyyətini həyata keçirən xarici şirkətlər üçün xüsusi rejimli vergitutma mexanizmi nəzərdə tutulmuşdur.

Belə ki, Azərbaycan Respublikası ərazisində karbohidrogen fəaliyyətini həyata keçirən xarici subpodratçı şirkətlər gördükləri iş və xidmətlərə görə əldə etdikləri gəlirdən yalnız 5-8 faiz dərəcə ilə ödəniş mənbəyində tutulan mənfəət vergisinin ödəyiciləridirlər və digər vergiləri ödəməkdən azaddırlar. Neft sazişləri üzrə podratçı tərəf sayılan xarici şirkətlərin karbohidrogen fəaliyyətindən əldə etdikləri gəlirləri isə həmin sazişlərlə müəyyən olunan dərəcələrlə yalnız mənfəət vergisinə cəlb olunmalıdır.

Ölkədə həyata keçirilən vergi siyasəti, yaradılmış əlverişli vergi mühiti xarici investisiyalı müəssisələrinin sayının artmasına, xarici investisiyalarının ölkə iqtisadiyyatına axının güclənməsinə səbəb olmuşdur.

Tədqiqatın məqsədi neftqazçıxarmada vergi dərəcəsinin azaldılması ilə investisiya layihəsinin iqtisadi qiymətləndirilməsində səmərəliliyin əldə edilməsi və iqtisadi qərarların qəbulunda bundan istifadə olunmasından ibarətdir.

## 2. Neftqazçıxarmada investisiya aktivliyi və iqtisadi artımın təmin edilməsi

İnvestisiya prosesi, xarici investisiyaların cəlbedilməsi və ölkədə investisiya siyasətinin formalaşması çox mühüm problemdir və onun həllində dövlət ciddi addımlar atır. İnvestisiya siyasətinin əsas istiqamətləri aşağıdakı vəzifələrin həll edilməsini zəruri edir [1, 2]:

- xarici investorlar üçün vergi rejiminin sabitliyinin təmin edilməsi məqsədi ilə hüquqi və təşkilati şəraitin yaradılması;

- risklərin, o cümlədən kommersiyasız risklərin azaldılması ilə ölkənin investisiya reytinqinin artırılması;
- investisiya ilə bağlı bütün təşkilati funksiyaları icra edə biləcək vahid dövlət orqanının yaradılması;
- Azərbaycanı xarici ölkələrdə tanıtmaq baxımından,dünya təcrübəsindən bəhrələnməklə informasiya təşkilatının yaradılması.

Bütün bu işlərin yerinə yetirilməsi əsasən bir məqsədə, xarici investorların ölkəmizə marağının artırılması və əlverişli stimullaşdırıcı investisiya mühitinin yaradılmasına xidmət edir. Xarici investisiyanın cəlb edilməsi, onun idarə olunması baxımından müəyyən prinsiplərin olması vacibdir. Bu mənada respublika iqtisadiyyatına xarici kapitalın cəlb olunması və bu siyasətin həll edilməsində dövlətin tənzimləyici rolunun əks etdirilməsi aşağıdakı prinsip və istiqamətlər üzrə həyata keçirilməlidir:

- ayrıca götürülmüş konkret investisiya layihəsi üçün daha səmərəli investisiya növlərindən istifadə olunması (müştərək müəssisə, hasilatın pay bölgüsü və s.);
- investisiya layihələrinin reallaşdırılmasında sığorta və zəmanət sisteminin təşkili və inkişaf etdirilməsi;
- xarici investorlar haqqında məlumat bazasının, informasiya təminatının formalaşması, onların dünya bazarındakı nüfuz və ya reytinqi haqqında məlumatların toplanması;
- dünya təcrübəsindən bəhrələnərək investisiyanın cəlb edilməsinin təşkilati və hüquqi quruluşunun yaradılmasının mümkünlüyü, dünyanın qabaqcıl maliyyə qurumları ilə bərabər hüquqi iqtisadi əməkdaşlığın qurulması;
- respublikada fəaliyyətdə olan “Regionların İnkişaf Proqramı”na müvafiq olaraq xarici investisiya fəaliyyətindən bəhrələnmək imkanlarından istifadə etmək.

Qeyd etmək lazımdır ki, bu amillər içərisində ən əsası Azərbaycanın təbii amilləri, ilk növbədə isə onun neft ehtiyatlarıdır. Neft Azərbaycan üçün təkcə təbii sərvət, xammal, enerji mənbəyi deyil, o həm də ölkəmiz üçün böyük gəlir mənbəyi, iqtisadiyyatın dayağı, xarici kapitalın respublikaya axmasının güclü amili, dövlətin əlində fəal siyasət yeritmək alətidir [3].

Müasir dünyada müstəqil iqtisadi fəaliyyət göstərməyin ən başlıca şərti enerji mənbələrinə malik olmaqdır.

Azərbaycan bu cəhətdən heç bir başqa ölkədən asılı deyildir və müstəqil olaraq inkişaf etmək imkanına malikdir.

Respublikamızda “Əsrin müqaviləsi” ilə başlanan yeni neft strategiyası sonralar onlarla yeni neft müqavilələrinin imzalanmasına və reallaşmasına rəvac verdi.

Aşağıdakı Azərbaycan iqtisadiyyatına qoyulmuş xarici investisiyalar haqqında cədvəl və diaqram verilmişdir.

**Cədvəl 1. Xarici investisiyalar** (*milyon $*)

| | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 |
|---|---|---|---|---|---|---|
| Cəmi xarici investisiya | 4 893,2 | 5 052,8 | 6 674,3 | 6 847,4 | 5 468,6 | 8 247,8 |
| *o cümlədən:* | | | | | | |
| Maliyyə kreditləri | 698,4 | 983,5 | 1 576,6 | 2 357,9 | 1 438,3 | 3 405,9 |
| Neft sənayesinə | 3 799,9 | 3 422,3 | 4 003,3 | 3 350,7 | 2 412,7 | 2 955,3 |
| Birgə və xarici investisiyalı müəssisələr | 230,5 | 368,4 | 439,1 | 494,1 | 624,4 | 659,6 |

*Mənbə: Azərbaycanın statistik göstəriciləri Azərbaycan Respublikası Dövlət Statistika Bakı: 2011 848 s.*




**Diaqram: Xarici investisiyanın həcmi** (*milyon $*)

**I – cəmi xarici investisiya**

**II – neft sənayesi**

*Mənbə: Cədvəl 1-ə əsasən müəllif tərəfindən tərtib edilmişdir.*

Təhlil göstərir ki, Azərbaycan iqtisadiyyatına yönəldilən xarici investisiyanın 44 %-i birbaşa investisiyalar təşkil edir. Cədvəl 1-dən göründüyü kimi, tədqiqat dövründə xarici investisiyaların miqdarı 3,4 mlrd ABŞ dolları və ya 1,7 dəfə artmışdır. Bu, digər istiqamətlərlə yanaşı, eyni zamanda maliyyə kreditlərinin 0,7 mlrd dollardan (*2005-ci ildə*) 3,4 mlrd ABŞ dollara (*2010-cu ildə*) qədər artması hesabına olmuşdur ki, bu da cəmi investisiyaların 41,3 %-ni təşkil etmişdir.

Neft sənayesində isə xarici investisiyaların miqdarı 2007-ci ildə ən yüksək həddə çatmışdır ki, (*4,0 mlrd ABŞ dolları*) bu artımı bir tərəfdən Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas Boru İxrac kəməri ilə bağlı layihənin, digər tərəfdən isə, Şah

Dəniz yatağının işlənməsi və Cənubi Qafqaz qaz kəmərinin tikintisi ilə izah etmək olar. Bu sənaye sahəsində xarici investisiya qoyuluşu sonrakı illərdə nisbətən azalsa da, 2009-cu illə müqayisədə 2010-cu ildə 0,5 mlrd. ABŞ dolları, və ya 1,2 dəfə artmışdır. Bu da ona dəlalət edir ki, hələ də xarici investorlar üçün neft sənayesi prioritet sahə kimi qalmaqdadır.

Onu da qeyd edək ki, baxılan dövrdə bütün mənbələr üzrə investisiya qoyuluşunun təhlili göstərdi ki, ölkə iqtisadiyyatına daxili investisiya axını da aktivləşmişdir ki, bu da ölkə iqtisadiyyatının inkişafı üçün çox mühümdür.

Azərbaycan Respublikasında yeridilən məqsədyönlü daxili və xarici siyasət sayəsində ölkəmiz dünyanın bir sıra böyük dövlətləri ilə iqtisadi əməkdaşlıq edir və ildən ilə artmaqdadır.

Aşağıda ayrı-ayrı ölkələr üzrə 2005-2010-cu illərdə Azərbaycana yönəldilən investisiyaların həcmini əks etdirən cədvəl verilmişdir:

**Cədvəl 2. 2005-2010-cu illərdə Azərbaycana yönəldilən investisiyaların həcmini** (*milyon $*)

| Ölkələr | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 |
|---|---|---|---|---|---|---|
| Cəmi xarici investisiya | 4 893,2 | 5 052,8 | 6 674,3 | 6 847,4 | 5 468,6 | 8 247,8 |
| *o cümlədən:* | | | | | | |
| Türkiyə | 96,2 | 136,6 | 109,2 | 60,8 | 76,8 | ,,, |
| ABŞ | 24,8 | 70,0 | 78,0 | 108,8 | 117,6 | ,,, |
| İran | 1,2 | 17,5 | 4,6 | - | 6,8 | ,,, |
| Almaniya | 21,5 | 17,4 | 22,9 | 48,2 | 38,8 | ,,, |
| Rusiya | 5,1 | 4,6 | 10,7 | 5,8 | 50,3 | ,,, |
| Böyük Britaniya | 39,5 | 39,1 | 80,0 | 146,4 | 160 | ,,, |
| Birləşmiş Ərəb Əmirlikləri | 5,7 | 18,3 | 12,3 | 38,5 | 43,2 | ,,, |
| İsveçrə | 0,5 | 2,7 | 3,5 | 3,7 | 16 | ,,, |
| Fransa | 2,6 | 11,1 | 4,4 | - | 4,5 | ,,, |
| Kipr | 0,2 | 5,4 | 13,2 | 2,2 | - | ,,, |
| Çin | 0,2 | 1,3 | 1,2 | 8,1 | 25,9 | ,,, |
| İtaliya | 4,6 | 2,8 | 14,0 | 2,0 | 9,8 | ,,, |
| Pakistan | - | 3,1 | - | - | - | ,,, |
| Yaponiya | | - | - | 0,4 | 2,8 | ,,, |
| Digər ölkələr | 28,4 | 38,5 | 85,1 | 69,2 | 71,9 | ,,, |
| Neft bonusu | 1,0 | 17,0 | 68,2 | 3,5 | 1,0 | 2,0 |
| Digər investisiyalar | 163,4 | 261,6 | 587,1 | 641,2 | 992,2 | 1 225,0 |

*Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. 11.07.2011-ci il*

Cədvəl 2-dən göründüyü kimi, 2009-cu ilin göstəricilərinə görə ölkəmizə yönəldilən xarici investisiyada Türkiyənin payı 76,8 mln. ABŞ dolları (*və ya 1,4%*), ABŞ-117,6 mln ABŞ dolları (*və ya 2,2%*) təşkil etmişdir. Onu da qeyd edək ki, müxtəlif dövlətlərin 2005-ci il ilə müqayisədə investisiya həcmi ilbəil artmışdır ki, bunlara əsasən Böyük Britaniya (4,1 dəfə), Rusiya (*9,9 dəfə*), Birləşmiş Ərəb Əmirlikləri (*7,6 dəfə*) və s. aiddir.

## 3. Vergi islahatları və investisiya layihələrinin iqtisadi əsaslandırılmasında qərarın qəbulu

Azərbaycan Respublikasının iqtisadi müstəqilliyinin möhkəmləndirilməsinin, dünya iqtisadi sisteminə inteqrasiya olunmasının, ölkədə səmərəli investisiya mühitinin yaradılmasının əsas göstəricisindən biri başqa şərtlərlə yanaşı vergi sisteminin təkmilləşdirilməsidir. Vergilər iqtisadiyyatın, istehsal prosesinin, bölgünün və istehlakın dövlət tərəfindən tənzimlənməsinin mühüm alətidir. Son illər Azərbaycan Respublikasının vergi qanunvericiliyi sisteminin təkmilləşdirilməsi sahəsində böyük işlər görülmüş, vergi münasibətlərini tənzimləyən bir sıra əlahiddə qanunlar və nəhayət 2001-ci ildə "Vergi Məcəlləsi" qəbul edilmişdir [5, 6].

Həmçinin inkişafın tələblərinə uyğun olaraq vergilərlə bağlı qanunvericilikdə bir sıra əlavə və dəyişikliklərin edilməsi mühüm əhəmiyyət kəsb edir. Belə ki, vergi qanunvericiliyinin pozulmasına görə vergi orqanları tərəfindən tətbiq olunan maliyyə sanksiyaları xeyli yüngülləşdirilməklə yanaşı hüquqi şəxslərdən mənfəət vergisinin dərəcəsi 20% həcmində müəyyən edilmiş, yəni son bir neçə ildə 32%-27%-25%-22%-20%-ə endirilmiş, əlavə dəyər vergisi 20%-dən 18%-ə endirilmiş, əsas fondların aktiv hissəsi əmlak vergisindən mənfəətin investisiya yönəldilən hissəsi vergiyə cəlb olunmaqdan azad edilmiş, kiçik və orta sahibkarlığın inkişafını təmin etmək məqsədi ilə sadələşdirilmiş sistem üzrə verginin tətbiq edilməsi həyata keçirilmişdir.

Bir sözlə, Vergi Məcəlləsi indiyədək ölkədə gedən vergi islahatlarının məntiqi davamı, mövcud olan vergi qanunlarının vahid prinsiplər əsasında sistemləşdirilmiş məcmusudur. Respublikanın indiki şəraitində vergi dərəcəsinin aşağı salınması iqtisadiyyata qoyulan investisiya həcminin artımına və ölkədə dayanıqlı inkişafa səbəb olacaqdır.

Ölkə iqtisadiyyatına cəlb olunan investisiyaların səmərəliliyi bu sahədə düzgün idarəetmə qərarlarının qəbul edilməsindən bilavasitə asılıdır. Səmərəli işlənmə variantının seçilməsi və mümkün alternativlərin müəyyən edilməsi idarəetmə qərarlarının kompleks təhlilini zəruri edir. Bu zaman əsas məsələ qərarların qoyulan məqsədlə uzlaşdırılması və qarşıda duran məqsədə çatmaq üçün zəruri yolların və vasitələrin müəyyən edilməsidir.

Qeyd edək ki, neft yataqlarında investisiya layihələrinin (*işlənmə variantları*) qiymətləndirilməsi ölkədə fəaliyyətdə olan qanunvericilik bazasına əsasən yerinə

yetirilməlidir. Azərbaycan Respublikasında neft sənayesində aşağıdakı adda vergi və məhsulun maya dəyərində nəzərə alınan ayırmalar mövcuddur [4]:

- əlavə dəyər vergisi (18%);
- əmlak vergisi-əsas vəsaitlərin orta illik dəyərinin 1%-i;
- mənfəət - 20%; təqaüd fonduna ayırmalar (*22%*);
- yol fonduna ayırmalar (*110 manat/yük maşını, 55 manat/gün minik maşını*);
- yerin təki üçün ödənişlər (*11, 06 manat/t neft, 3,08 manat/1000 m qaz*);
- torpaq vergisi (*650 manat/ha, Bakı şəhəri üçün*).

Son zamanlar vergi sisteminin sadələşdirilməsi, ödəmələrin dərəcələrinin azaldılması neftqaz sənayesi üçün ən unikal problemlərdəndir. Belə ki, Azərbaycanın köhnə neft yataqlarının inkişafı və saxlanılması böyük vəsait qoyuluşu tələb edir. Həmçinin bu yataqlarda çətin çıxarıla bilən ehtiyatların mövcudluğu problemi bir az da qəlizləşdirir.

Layihələrin texniki-iqtisadi əsaslandırılması, bölüşdürülməsinin fiskal şərtlərinin seçilməsindən asılı olaraq alqoritm işlənib hazırlanmışdır.

Aşağıda yerinə yetirilmiş iqtisadi hesabatların nəticəsi haqqında söhbət gedəcək və buradakı iqtisadi əsaslandırma Qala yatağı üçün həyata keçirilmişdir.

Neft yatağının işlənmə layihəsi altı variantda yerinə yetirilmişdir:

- I variant-işlənmənin fəaliyyətdə olan quyu fondu ilə aparılmasını nəzərdə tutur;
- II variant-I variantın şərtləri+qaytarmadan 78 quyu;
- III-variant-I variantın şərtləri+151 quyu qaytarmadan+365 yeni qazılacaq quyu, IIIa variantı-I variantının şərtləri+142 quyu qaytarmadan+365 yeni qazılacaq quyu;
- IV variant-I variantın şərtləri+151 quyu qaytarmadan+365 yeni qazılacaq quyu+süni təsir üsulunun tətbiqi; IVa variant-I variantın şərtləri + 139 quyu qaytarmadan, 365 yeni qazılacaq quyu+IV varianta nisbətən vurulacaq agentin miqdarının azaldılması.

Bu şərtlər daxilində işlənmə layihələri iki istiqamətdə yerinə yetirilmişdir; verginin 25% və 20% olduğu hallar üçün.

Qeyd edək ki, baxılan 6 variantdan texniki-texnoloji-iqtisadi baxımından maraq doğuran variantlar aşağıdakılardır; III variant, IIIa variantı, IV variant və IVa variantı. Təhlil nəticəsində məlum olmuşdur ki, I və II variantlarla müqayisədə yuxarıda qeyd olunan variantlar üzrə 1 t məhsulun maya dəyəri göstəricisinin qiyməti kiçikdir. Odur ki, ancaq göstərilən dörd variantın müqayisəsinə baxılacaqdır.

Məlumdur ki, investisiya layihələrinin qiymətləndirilməsində bir sıra kateqoriyadan istifadə olunur.

Sırf cari dəyər göstəricisi (*NPV*) investisiya layihəsinin reallaşdırılması zamanı ümumi diskontlaşdırılmış mədaxildən investisiya edilmiş kapitalın məbləğini çıxmaqla təyin edilir. İnvestor üçün o layihələr maraq doğurur ki, NPV>0 şərti ödənilsin. Bu o deməkdir ki, investor nəzərdə tutulan faiz dərəcəsindən çox əlavə

mənfəət əldə edəcəkdir. Rentabellik indeksi (*Pİ*) investisiya layihəsinin reallaşdırılması zamanı daxil olmaların məbləğinin investisiyanın miqdarına olan nisbəti kimi təyin edilir və investor üçün Pİ ✞ 1 olan layihələr daha çox maraq doğurur.

Aşağıda cədvəl 3-də işlənmə layihəsi üçün vergi dərəcəsinin və 25% və 20% göstəriciləri verilmişdir.

**Cədvəl 3.İşlənmə layihəsi üçün vergi dərəcəsinin və 25% və 20% üzrə göstəriciləri**

| | Dövrlər, il | Vergi dərəcəsi 25% | | Vergi dərəcəsi 20% | |
|---|---|---|---|---|---|
| | | NPV mln. manat | Pİ | NPV mln. manat | Pİ |
| Variant III | 5 | 13420,01 | 1,24 | 14339,05 | 1,26 |
| | 10 | 49521,20 | 1,35 | 52911,93 | 1,38 |
| | 15 | 87649,59 | 1,24 | 93652,85 | 1,27 |
| | 20 | 129003,26 | 1,23 | 137838,96 | 1,25 |
| | 25 | 144827,34 | 1,11 | 154746,88 | 1,12 |
| Variant IIIa | 5 | 13131,87 | 1,24 | 14076,34 | 1,26 |
| | 10 | 40835,52 | 1,32 | 43677,49 | 1,35 |
| | 15 | 61244,98 | 1,17 | 65484,85 | 1,19 |
| | 20 | 81375,86 | 1,14 | 86994,56 | 1,16 |
| | 25 | 107274,48 | 1,18 | 114667,06 | 1,19 |
| Variant IV | 5 | 13420,01 | 1,24 | 14338,05 | 1,26 |
| | 10 | 49405,60 | 1,35 | 52912,93 | 1,38 |
| | 15 | 87533,99 | 1,24 | 93652,85 | 1,27 |
| | 20 | 137966,37 | 1,27 | 147552,71 | 1,29 |
| | 25 | 169083,77 | 1,20 | 180788,23 | 1,22 |
| Variant IVa | 5 | 13174,05 | 1,24 | 14076,34 | 1,26 |
| | 10 | 40877,70 | 1,32 | 43677,49 | 1,35 |
| | 15 | 61339,82 | 1,17 | 65484,85 | 1,19 |
| | 20 | 81380,21 | 1,14 | 86983,82 | 1,15 |
| | 25 | 111160,87 | 1,20 | 118804,25 | 1,22 |

Cədvəl 3-ün təhlili göstərir ki, III və IIIa; IV və IVa variantlarının öz aralarındakı müqayisə III və IV variantlara üstünlük verilməsini labüd edir. Belə ki, NPV göstəricisinin müqayisəsi həm 25%, həm də 20%-lik vergi tutulmasında III və IV variantlarda daha yüksəkdir. Əgər III və IV variantların müqayisəsi ilə davam etdirsək, onda IV varianta daha çox üstünlük verilməlidir.

Doğrudan da, bu variantda neftvermə əmsalı, ümumi neft hasilatı, NPV III variantla müqayisədə daha böyük qiymətə malikdir. Bu mənada işlənmə layihəsi variantının seçilməsi və uyğun qərarların qəbulu baxımından IV varıant texniki-iqtisadi cəhətdən daha məqsədə uyğundur.

## 4. Nəticə

Vergi yükünün azalması hesabına (*vergi dərəcəsinin 25%-dən 20%-ə endirilməsi*) NPV göstəricisinin dövrlər üzrə dəyişməsi, sanki neftqazçıxarma müəssisəsini "varlı" etmişdir.

Fikrimizcə, uzun illər Azərbaycanın iqtisadiyyatının inkişafına xidmət etmiş respublikamızın köhnə neft yataqlarında da vergi sisteminin diferensiasiya edilməsi və yumşaldılması məsələsinin vaxtı çatmışdır ki, bu tədbirlərin tətbiqi istismarı bilavasitə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin öz ixtiyarında olan neft yataqlarının perspektiv inkişafına stimul yaradıcı təsir göstərə bilərdi və bu isə idarəetmədə düzgün qərarların qəbuluna şərait yaradardı.

Neftqazçıxarma sənayesinin Azərbaycanın iqtisadiyyatının inkişafında böyük rol oynadığını nəzərə alaraq xarici (həm də daxili) investisiyaların bu sahəyə cəlb edilməsi üçün vergi dərəcələrinin diferensiallaşdırılması ilə yaxşı investisiya mühitinin yaradılması və onların stimullaşdırıcı təsirinin yüksəldilməsi mühüm əhəmiyyət kəsb edərdi.

## Ədəbiyyat siyahısı:

1. İbrahimov A.S. İnvestisiyalar: mahiyyəti, təsnifatı, və uçot problemləri. // Maliyyə və uçot. 2006, №3, s. 30-36.
2. Məmmədov V.B. Azərbaycanın investisiya siyasəti və xarici investisiyalarının idarə edilməsinin təkmilləşdirilməsi. // İqtisadiyyat və həyat. 2000, №4-6, s. 62-65.
3. Səfərov Q.Ə. Azərbaycan iqtisadiyyatının formalaşmasında neft amili. Azərbaycan neft təsərrüfatı, 2007, №1, s. 8-17.
4. Azərbaycan Respublikası Vergi Məcəlləsi. Bakı, Səda, 2006.
5. Məmmədov F.Ə., Musayev A.F., Sadıqov M.M. və s. Vergitutmanın nəzəri və metodoloji əsasları. Bakı: Ozan, 2001, 290 s.
6. Atakişiyev M.C., Hacızadə E.M. Neftqazçıxarmada vergi sisteminin təkmilləşdirilməsi meylləri. Elmi məqalələr məcmuəsi "Keçid dövrünün iqtisadiyyatının aktual problemləri" Azərbaycan Dövlət Neft Akademiyası, Bakı: 2002, №1. s. 8-14.

**Мамедова Ирада Халид кызы**
диссертант, ГНКАР, НИПИНефти и Газа

## Налоговый фактор в экономической оценке инвестиционных проектов в нефтегазодобыче

**Аннотация**

*Цель исследования* - путем снижения налоговых ставок в нефтегазодобыче достижение эффекта при оценке эффективности инвестиционных проектов и использование данного механизма при принятии экономических решений.

*Методология исследования* - методологией исследования являются логический подход, сравнительный анализ, аналитические расчеты.

*Результаты исследования* - обоснование влияния изменения показателя NPV по периодам за счет снижения налоговой нагрузки (с 25% до 20%) для эффективного функционирования нефтегазодобывающего предприятия.

*Ограничения исследования* - в связи с объемом статьи, невозможность полной экономической оценки инвестиционных проектов для старых нефтяных месторождений Азербайджана.

*Практическая значимость исследования* - возможность использования представленного исследования при оценке других инвестиционных проектов.

*Оригинальность и научная новизна исследования* - с целью обеспечения привлекательности и привлечения инвестиции для разработки старых нефтяных месторождений предложена дифференциация налоговых ставок.

**Ключевые слова:** *нефтегазодобывающий комплекс, инвестиции, налогообложение.*

**Mamedova İrada Khalid qizi**
PhD-Student “Oilgasscientificresearchproject” Institute SOCAR

## The tax factor in economical appraisal of the oil and gas production investment projects

**Abstract**

*Purpose* – By the reduction of tax in oil and gas production to reach the effect in estimating of investment project and using of it in economical decision making.

*Design/methodology* – Research methodology are analyze, comparison, logical approach, analytical estimation.

*Findings* – “enrichment” of the oil and gas production enterprises by changing of NPV indications periodically as the tax reduction result (from 25% to 20%).

*Research limitations* – in view of article scope change, it is impossible to discover fully the economical appraisal of the investment project in the old oilfields of Azerbaijan.

*Practical implications* – possibility of using of current research in appraisal of other investment projects.

*Originality/value* – the differentiation of tax rate for attracting of investment in development of the old oil fields.

**Keywords:** *oil-and- gas production complex, investments, taxation.*

**JEL Classification Codes:** D31, E22, H3

Məqalə redaksiyaya daxil olmuşdur: 12.09.11.
Təkrar işləməyə göndərilmişdir: 18.09.11.
Çapa qəbul olunmuşdur: 23.11.11.